ADU-nun Elmi Şurasının 26 Aprel tarixli
İclasının qərarı ilə təsdiq edilmişdir.
(protokol № 4)

**2011-ci ildə Azərbaycan Dillər Universitetinin Bakalavriat ali təhsil pilləsində Yekun Buraxılış Dövlət Attestasiyasının Yeni Müvəqqəti Qaydaları**

1. Bakalavr məzunlarına (bundan sonra "Məzun") ixtisas dərəcəsi mövcud qaydada yaradılmış Yekun Buraxılış Dövlət Attestasiya Komissiyalarının qərarı ilə tələbənin təhsil göstəriciləri, Hesabatı və ya "Buraxılış işi" əsasında verilir.
2. Məzunlar Dövlət Attestasiya Komissiyalarına bu Qaydaların 4-cü bəndində göstərilmiş formada müvafiq təlim dilində (Azərbaycan və ya Rus dilində) yazılmış Hesabat təqdim edirlər. Bu tədris ilində təsdiq olunmuş mövzular üzrə "Buraxılış işi" üzərində işləyən tələbələr həmin işləri və yaxud Hesabatı, ya da hər ikisini təqdim edə bilərlər.
3. Hesabat hər bir məzunun özü tərəfindən yazılmaqla onun bakalavr təhsili zamanı əldə etdiyi bilik, bacarıq və vərdişləri, elmi fəaliyyətini və ictimai işlərdəki iştirakını əks etdirməlidir. Hesabatda tələbənin tədris prosesinin təşkilinə, onun keyfiyyətinə və tələbəliklə bağlı digər məsələlərə öz münasibətini bildirməsi təqdir olunur.
4. Hesabat aşağıdakı quruluşda tərtib olunur:

- **Titul vərəqi** (Məzunun şəxsiyyət vəsiqəsi əsasında soyadı, atasının adı, adı; Oxuduğu fakültə və aldığı ixtisas (şifrəsi ilə), ADU-nu bitirdiyi il)
- **Hesabatın özü: a) Təhsil fəaliyyəti** (əldə etdiyi bilik, bacarıq və vərdişlərin təsviri, təhsil müddətində xarici ölkə universitetlərinin yay məktəblərində və s. formada aldığı əlavə təhsil); **b) Elmi fəaliyyət** (Tələbə Elmi Cəmiyyətinin tədbirlərində, olimpiadalarda, Respublika elmi konfranslarında, xarici ölkələrdə keçirilən konfrans və müsabiqələrdəki iştirakı); **c) İctimai işlərdə**

**iştirak** (Dövlət tədbirlərində, xeyriyyəçilik işlərində, idman yarışlarında, tələbə özfəaliyyət dərnəklərində, tələbə özünüidarəetmə qurumlarında və s. bu kimi işlərdə iştirakı); **d)** ADU-da tədris prosesinin təşkilinə, keyfiyyətinin təminatına, dərsdənkənar tədbirlərin keçirilməsinə və bu kimi digər məsələlərə münasibət.

**5.** Dövlət Attestasiya Komissiyaları tələbənin şəxsən özündən onun Hesabatını qəbul edir. Bu haqda xüsusi olaraq ayrılmış və qaytanlanmış jurnallarda qeydlər aparılır, hesabatı təqdim edən və qəbul edən şəxslərin imzaları ilə təsdiq olunur.

**6.** Fakültə dekanları müvafiq Attestasiya Komissiyalarına "Polotno komissiyaları"nın arayışı əsasında tələbələrin təhsil fəaliyyəti haqqında lazımi məlumatları təqdim edirlər. Bu məlumatlar tələbəyə adi və ya fərqlənmə diplomunun, zəmanətin verilməsi üçün əsasdır.

**7.** Dövlət Attestasiya Komissiyaları tələbənin təhsil müddətində göstərdiyi fəaliyyət, bu Qaydalarla müəyyən edilmiş Hesabatın və ya "Buraxılış işi"nin təqdim olunması və ya olunmaması faktı əsasında ona bakalavr dərəcəsinin, fərqlənmə və ya adi diplomun verilməsi haqqında qərar qəbul edir.

**8.** Hesabatlar və "Buraxılış işləri" **qiymətləndirilmir**, lakin Buraxılış Dövlət Attestasiyasının forması kimi onların yerinə yetirilməsinə Tədris planında nəzərdə tutulan miqdarda AKTS (ECTS) kreditləri ayırılır.

**9.** Hesabatını və ya "Buraxılış işi"ni vaxtında Dövlət Attestasiya Komissiyasına təqdim etməyən tələbə bu iş üçün nəzərdə tutulan AKTS (ECTS) kreditləri qazanmadığı üçün Attestasiyadan keçməmiş hesab olunur, ona bakalavr dərəcəsi və diplom verilmir.

**10.** Dövlət Attestasiya Komissiyaları Hesabatlarla bağlı öz işini yekunlaşdırdıqdan sonra Qeydiyyat jurnallarını, Komissiyanın iclas protokollarını saxlanılmaq üçün müvafiq Dekanlığa, "Buraxılış işləri"ni isə ADU-nun kitabxanasına təhvil verir.

**11.** Hesabatlar Eksperimentin nəticələrinin təhlil edilərək ümumiləşdirilməsi, qiymətləndirilməsi və müvafiq təkliflərin hazırlanması üçün Dövlət

Attestasiya Komissiyası tərəfindən Keyfiyyətin Təminatı Mərkəzinə siyahı ilə təhvil verilir.

**12.** Keyfiyyətin Təminatı Mərkəzi Hesabatlar üzərində bu Qaydaların 11-ci bəndinə uyğun olaraq işini tamamladıqdan sonra onları Tələbə şöbəsinə təhvil verir. Tələbə şöbəsi saxlanmaq üçün onları tələbənin şəxsi işinə daxil edir.